*AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu*
*Azərbaycan ədəbiyyatşünaslığı, 2025, № 1* *ISSN: 2663-4406*
*Səhifə: 83-88* *E-ISSN: 2709-2699*
*https://doi.org/10.59849/2663-4406.2025.1.83*

# Məmməd İsmayılın poeziyası

**Gülnar Qasımlı**
Filologiya üzrə fəlsəfə doktoru
AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu
E-mail: gulnar0486@mail.ru

**Annotasiya.** Məqalədə Məmməd İsmayılın poeziyasına münasibət bildirilmişdir. Şairin şeirlərinin orijinallığından, poetik tutumundan bəhs etmiş və onun poeziyasının əsas mövzuları, daha çox istifadə etdiyi janrlar haqqında məlumat verilmişdir. Bir neçə məşhur şeirinin adı çəkilmişdir. Sevilən misralarından nümunələr təqdim edilmişdir. Həm sovet dövründə, həm də müstəqillik illərində yazdığı şeirlər təhlil olunmuşdur.
**Açar sözlər:** Məmməd İsmayıl, poeziya, lirik şeirlər, müharibə mövzusu

**Məqalə tarixçəsi:** göndərilib – 15.01.2025; qəbul edilib – 27.01.2025

# The poetry of Mammad Ismayil

**Gulnar Gasimli**
Doctor of Philosophy in Philology
Institute of Literature named after Nizami Ganjavi of ANAS
E-mail: gulnar0486@mail.ru

**Abstract.** The article expresses an attitude towards Mammad Ismayil's poetry. The originality and poetic attitude of the poet's poems are discussed. Information is provided about the main themes of his poetry and the genres he used most often. Several of his famous poems are mentioned. Examples of his favorite verses are presented. The poems he wrote both during the Soviet period and during the years of independence are analyzed.
**Keywords:** Mammad Ismayil, poetry, lyrical poems, war theme

**Article history:** received – 15.01.2025; accepted – 27.01.2025

## Giriş / *Introduction*

Azərbaycan ədəbiyyat tarixindən dünya ədəbiyyatına cığır salan şairlərdən biri də 1939-cu ildə Tovuz rayonunun Əsrik-Cırdaxan kəndində dünyaya göz açan Məmməd İsmayıldır. Azərbaycan, türk, fransız, yapon, alban, rumın, rus, macar, qazax və başqa dillərdə 40-dan çox bədii və elmi kitabı, 300-dən artıq məqaləsi çap olunmuş, 50-dən çox şeirinə mahnı bəstələnmiş şairin əsərlərini, mərkəzi ofisi Rumıniyanın Graiova şəhərində yerləşən Mihail Emunescu Akademiyası 2018-ci ildə Nobel Mükafatına təqdim etmişdir. 1996-cı ildən Türkiyənin Çanaqqala On səkkiz Mart Universitetində professor kimi elmi fəaliyyətlə məşğul olan Məmməd İsmayılın adına 2018-ci

ildə Türkiyədə "Akademik Şeir Ailəsi Yazarlar Qurumu" tərəfindən ildə fərqlənən bir türk şairinə verilmək üzrə "Məmməd İsmayıl Ədəbiyyat ödülü" və 2023-cü ildə Türkiyədə çap olunan Güftə Ədəbiyyat Kültür Sənət və Ədəbiyyat dərgisi tərəfindən Beynəlxalq professor Məmməd İsmayıl Şeir Yarışması təsis edilmişdir.

Məmməd İsmayılın Türkiyəyə gedənə qədər öz vətənindəki fəaliyyəti də məhsuldarlığı ilə seçilir. Ölkəmiz müstəqilliyini yenidən bərpa etdiyi 1992-1993-cü illərdə Azərbaycan Televiziya və Radio Verilişləri Şirkəti idarə heyətinin sədri vəzifəsində çalışmışdır. 1988-1992-ci illərdə isə onun baş redaktorluğu ilə çap olunan "Gənclik"-"Molodost" jurnalları özünəxaslığı ilə geniş oxucu kütləsi qazanmışdır. Məktəb illərindən bədii yaradıcılığa başlayan şair 1970-ci ildən "Azərbaycan Yazıçılar Birliyi"nin və "Azərbaycan Jurnalistlər Birliyi"nin üzvüdür. Əsasən lirikası və poemaları ilə tanınan Məmməd İsmayılın avtobioqrafik səciyyə daşıyan "İz" romanı (Bakı, 2015), (İstanbul, 2019), (Berlin, 2020), (Təbriz, 2022) dəfələrlə başqa dillərdə də yayımlanmışdır.

## Əsas hissə / *Main part*

"Ana əlləri" (1966) və "Dünyaya baxıram" (1969) şeir kitabları 1960-cı illərdə işıq üzü görən Məmməd İsmayıl 60-cılar ədəbi nəsli hesab edilən qələmdaşlarından özünəməxsusluğu ilə seçilməyi bacardı. Yaradıcılığının ilkin mərhələsi keçmiş sovet imperiyası vaxtına düşmüş, vətəni müstəqillik qazandıqdan sonra isə Türkiyədə yaşayıb-yaratmışdır. Məkan və zaman fərqliliyi Məmməd İsmayıl yaradıcılığını öz orbitindən çıxara bilməmişdir. Onun sovet dövründə çap olunmuş heç bir kitabında həmin quruluşu vəsf edən əsərlərə rast gəlmirik. İkinci Dünya müharibəsindən qayıtmayan ata obrazı və bir oğlu ilə taleyin sınaqlarına baxmayaraq, ərinə sadiq qalmış ana obrazı şairin poeziyasının mərkəzində dayanır. Bu mövzuda çoxlu şeirləri olsa da, poemalarında da mətləbdən uzaq düşməmiş, "şəhid ata, dul ana, yetim övlad" üçbucağı onun yaradıcılığının əsas qayəsinə çevrilmişdir. Hətta sonralar yazığı "İz" romanında da poeziyasının "daşlaşmış" mövzusuna bir daha müraciət etmişdir. Şairin anasına həsr etdiyi şeirlər onun poeziyasının ana xəttini təşkil etməklə bahəm, səmimiliyi ilə seçilir.

*Qəbrinin üstünə yollanan cığır,*
*Həyatın ölümə sualı kimi.*
*Bizim ana-bala məhəbbətimiz,*
*Çəkilər atalar misalı kimi.* [3, s.119]

bəndində şairin maraqlı tapıntılarından biri təbii coğrafiyanı bədii fiqurlarla obrazlaşdırmasıdır. Hər qəbrə doğru bir cığır uzanar. Bu cığır varsa, demək o qəbir yad edilir, unudulmur. Həyatla ölüm arasında vasitəçi var. Ölüm insana cismani sahib çıxandan sonra ana-övlad münasibətinin atalar misalına çevriləcək qədər unudulmazlığı şeirin ruhunu da, mahiyyətini də aktuallaşdırır.

Məmməd İsmayılın poeziyasında öz əbədiliyinə sadiq qalan mövzudan başqa, məhəbbət, təbiət və ictimai-siyasi lirika da çox uğurlu alınmış, vətənpərvərlik, türklük ideyası yaradıcılığının məğzinə çevrilmişdir. Onun poeziyası nə qədər öz qəlibi olan poeziya olsa da, bəhrələndiyi mənbələr, üz tutduğu sənətkarlar da kifayət qədərdir. Şeirlərində kök salmış mənbələrdən biri də folklordur. "Babaların unudulmuş əmək nəğmələrindən" silsiləsi, "Baba Dərviş"ə xitabən yazdığı şeir, "Savalanda yatan igid" şeiri bu baxımdan səciyyəvidir. Eləcə də, atalar sözləri, əfsanələr, lətifələr, nağıllar, dastanlar şairin poeziyasına xüsusi çəki verir. "Koroğlu", "Əsli və Kərəm", "Dədə Qorqud" dastanlarının müəyyən epizodlarından yaradıcı şəkildə istifadə edir.

"Dədə Qorqud" motivlərini ehtiva edən "Oğuz hələ yuxudadır" şeiri "Su pərisi, su pərisi, bu çoban şəhvət hərisi..." misraları ilə başlayır. "Basatın Təpəgözü öldürdüyü boy"la səsləşən şeir doqquz bənddən ibarətdir. Şeirdə həmin boy bütün təhlilləri ilə göz önündə dayanır, lakin şair

burada boyun süjetini nəzmə çəkməyib. Bir çobanın acığına bütün Oğuzu qarğayan su pərisinin başına gələnlərlə "Başına təpəgöz keçən, hələ yuxuda olan" oğuz elinin acınacaqlı taleyini obrazlaşdırır. Bir çobanın səhvi ucundan bütün oğuz elinin fəlakətə sürüklənməsini şair tarixi ibrət kimi göstərmiş, "Sevgidən doğulmayanlar, doğunca, Təpəgöz olur" [10, s. 84] qənaətinə gəlmişdir. "Şairin Təpəgöz məfhumuna verdiyi anlamı Çingiz Aytmatovun Manqurt obrazı ilə də müqayisə etmək olar" [2, s.100]. Yəni bu obrazların hər ikisi hansı nəslə mənsub olduğunu unutmuşlar. Lakin Manqurtdan fərqli olaraq, Təpəgöz səma mənşəli bir bəladır. Manqurt işgəncələr nəticəsində milli kimliyini yadından çıxarıb. Təpəgöz isə Oğuz elinin günah simvoludur, axırda mənsub olduğu tayfaya qənim kəsilən simvol. Şair bu şeirdə Təpəgözü milli kimliyinə xain çıxanların obrazı kimi ümumiləşdirir.

Məmməd İsmayılın "Sözüm sənədir, xalqım" şeirinin isə əksər bəndləri atalar sözlərindən təşkil olunmuşdur. Bu da folklorun yazılı ədəbiyyata necə töhfə verməsini əks etdirir. İlk bənddən şeirdə atalar sözlərinin çoxluğu ilə qarşılaşırıq:

*Baxma saqqalım yoxdu,*
*Yeri düşəndə eşit.*
*Qızım, sənə deyirəm,*
*A gəlnim, sən də eşit.* [7, s.32]

Növbəti bəndlərin əksəriyyəti də xalq hikmətinə əsaslanır: "Özün demisən, qızıl Yığana qismət olmur", "Yalan ayaq tutsa da, Yeriməyi yalandır", "Demisən, qurd ağacı Girib içindən yeyər", "Dönüb min bağ olardı, Bir bağın şitilləri", "Toyuq falını içsə, Qazanc mayanı basar", "Gözlərin görmədimi, Gözü çıxan qardaşı". 1981-ci ildə yazılmış bu şeirdə yazar sanki vətənimizin başına on il sonra gətiriləcək oyunları görürdü. Ona görə də xalqı ilə xalq dilində dərdləşirdi.

Məmməd İsmayıl ilk qələm təcrübələrindən lirikasının "daşlaşmış" mövzusu ilə seçilməyi bacardı. Professor Qəzənfər Paşayevin təbirincə desək, "Məmməd İsmayıl poeziyaya gəldiyi ilk illərdən ədəbi ictimaiyyətin diqqət mərkəzində olmuş, səngiməyən, çəkilmələrə məruz qalmayan yaradıcılığı görkəmli tənqidçimiz Vaqif Yusiflinin doğru olaraq göstərdiyi kimi, özündən sonrakı poetik nəslin yaradıcılığına qüvvətli təsir etmişdir" [1, s.10] Müharibə və onun fəsadları Məmməd İsmayıl yaradıcılığında bənzərsiz qəlibə düşdü, ortada avtobioqrafik mətn var, lakin eyni taleyi yaşayan hər kəs həmin mətnlərdə özünü görə bilir. Gənclik illərində yazdığı məşhur şeirinə baxaq:

*Qar idi evlərə gələn cığırlar,*
*Qar idi... evlərə gələn yox idi...*
*Cığırlar ölmüşdü neçə həyətdə*
*Yollar üzə durub dayanmışdılar...*
*Yuxuya bürünən o qarlı kənddə,*
*Təzəcə pöhrələr oyanmışdılar.* [6, s. 60]

Qar yağması və bunun insanın əməli salehliyinə şahid olması, yağmış qarın tənha qadınların sübut obyektinə çevrilməsi tamamilə qeyri-adi tapıntıdır. Bircə kəlmə "qar idi..." ifadəsi yüzlərlə şahidin həqiqəti təsdiq üçün təqdim edəcəyi dəlil-sübutlardan daha tutarlıdır. Müharibə vaxtı ərləri döyüşdə olan qadınların evlərinə gedən yollar qarla örtülü idisə, heç kəsin ayaq izləri yox idisə, deməli, o qadınların evinə naməhrəm kişi ayaq basmamışdır. Şair həmin xanımların ərlərinə sadiq qaldıqlarını təbiətin təbii hadisəsi ilə elə uzlaşdırır ki, bir qadının namusuna inamın bundan böyük təsdiqini təsəvvür etmək olmur.

Məmməd İsmayılın hələ sovet dövründən damğasını vuran kifayət qədər şeirləri vardır ki, sonralar da bu ənənə onun yaradıcılığında qorundu. "Ağacdələn, döy qapımı", "Vətən", "Bir də keçməyəcək elə bu anlar", "Kimi aldadırsan", "Keçir köynəyindən məni, a torpaq", "Bu yaz idi", "Döyüş, qələbə", "Ümiddən asılan qılınclar", "Qızlarım şəhərdən kəndə dönəndə", "Təzədən mən

sənə qayıdacağam", "Əlincə qalam", "Təkrar", "Amsterdam şəhəri", "Hardasa, gələcəkdə bir gözəl yaşayırdı", Çingiz xana həsr etdiyi "Qan" şeiri, "Ata şəkli", "Biz dörd nəfər idik..." və digər şeirləri hər biri özlüyündə bir mükəmməllik nümunəsi olmaqla yanaşı, cəm halında da şairin ümumi yaradıcılığının yükünü çəkə bilir.

Məmməd İsmayıl müraciət etdiyi hər bir mövzunu öz keçmişindən qoparmadan müasir dövrün mövzusuna çevirməyin ustasına çevrildi. Sevgi mövzusu nə qədər qədim tarixə malik olsa da, onun qələmində bu gün də gərək olduğunu bir daha sübut etmişdir. Bir neçə məşhur misralarına nəzər salaraq bunun şahidi ola bilərik: "Eləsinə vurul, vurulanda da, desinlər, ay Məmməd, əla gözəldir" [3, s.94], "Nə yaxşı ki indi çoxu anadı, Dünən bizi qoyub qaçan qızların" [6, s.167], "Onun körpəsinin yaşı üçaylıq, Mənim həsrətimin yaşı bir ildir", "Əriyim oduna qoy gilə-gilə, Mən səni sevmişəm səndən xəbərsiz" [7, s.109] "Məcnun ürəyimdən xəbərsiz naşı, Sevdiyim gözəli aldı Tovuzda" [4, s.68] kimi çoxlu sayda misal çəkə bilərik ki, məhəbbət mövzusunda tamam bənzərsizdir.

Eyni sözləri Məmməd İsmayılın istənilən mövzuda yazdığı digər şeirlərə də aid edə bilərik. "Kimdi arxasında dayanan adam, Görən bu zalımın dayısı varmı?" [9, s.21], "Hardasa, hardasa məni duyan var, Hələ yaşamağa dəyər bir az da" [4, s.66], "Həyatda sirrə bax, barama qurdu, Özünə tor qurar yarpağın üstə" [6, s.67], "Mən hardan biləydim bu gen dünyada, Bir qərib axşamlar, qərib axşamlar" [6, s.68], "Bir dəfə səhv edir minaaxtaran, Ömründə bir dəfə, cəmi bir dəfə" [6, s.74], "Dodağına fikir verdim qönçənin, Məmməd Aslan, Məmməd Aslan deyirdi" [4, s.93], "Sən də mi bizimtək göyə baxırsan, Dönüb yaratdığın yerə bax, allah" [8, s.20], "Onsuz da gələcək günə ümid var, Ümid olmayanda yenə ümid var" [9, s.77], "Bir adam yol gedir bizdən qabaqda, Anadan olandan ölənə kimi" [8, s.6] "Mehdi dönüb – Mixayılo, Aleksandır - Puşkin oldu Otuz beş yaşına qədər" [7, s.74], "Ölüm, hədələmə məni ölümlə, Ölərəm sənin də sirrin açılar" [7, s.76], "Ucalıqda boyu çəkib birinə, Balaca Qız qalasına bənzəyib" [7, s.132] misraları da bu qəbildəndir.

Vətənpərvərlik, millilik mövzularında da Məmməd İsmayıl poeziyası təkrarsızdır. "İlk evim-eşiyim, qəbiləm. Sevincim, kədərim qələbəm. Qəbələm, Qəbələm, Qəbələm!!!" [4, s.48], "Görən sonu varmı qoca Qafqazın, Mən onun neçənci silsiləsiyəm?!" [6, s.21], "Yəqin göydən düşüb bu qan, Bu qan yerdə qalan deyil" [9, s.17] misralarını nümunə gətirdiyimiz şeirlər də yazıldığı dövrdən orijinallığı ilə seçilir.

*Qurdu ulasın deyə*
*Qurddan alıb soyunu.*
*Dönüb tarixdən soruş*
*Əllərinin suyunu.* [10, s.88]

– tipli bəndlər Məmməd İsmayılın vətənpərvərlik mövzulu şeirlərinin kökündə bütün türk dünyasının xəritəsi dayandığını göstərsə də, o yeri gəldikcə Azərbaycanın tarixi faciələrinə üsyankarcasına münasibət bildirmişdir. Hələ Azərbaycanın sovet imperiyasının işğalı altında olduğu illərdə yurdumuzun ikiyə bölünməsinə qarşı açıq-aşkar etiraz edən şeirlər yazmışdır.

*Arzum da, Araz da böləndü iki,*
*Yenə biz-biz oldu başımın tükü.*
*Nifrət o günə ki, o zamana ki,*
*Bir qəlbin iki cür aləmi oldu.* [9, s.41]

Bəndin ilk iki misralarındakı "arzu" və "Araz" sözlərindəki səs assosiasiyaları şeirə nə qədər bədii güc verirsə, şeirin məna yükü ondan da güclüdür. Başqa bir şeirinin də sovet dövründə yazıldığını nəzərə alsaq, şairin böyük sovet imperiyasını deyil, parçalanmış doğma vətənini düşündüyünü görürük:

*Yolları bağlanmış, Təbriz yolları,*
*Qolları bağlanmış, Təbriz yolları.*
*Əyilib Arazdan su içmək istər,*
*O ciyəri yanmış Təbriz yolları.* [7, s.26]

Məmməd İsmayılın təbiət mövzulu şeirlərində də novatorluq, işlənmiş mövzunu yeni icad kimi təqdim edə bilmə ustalığı danılmazdır:

*Duman yuxu kimi, gizli sirr kimi,*
*Dərin dərələrin xoşuna gəlir.*
*Qaranlıq şübhəli bir fikir kimi,*
*Yığılıb bu evin başına gəlir.* [3, s.57]

– bəndində dərələrin çən-dumana qərq olması kimi adi təbiət hadisəsinin, təbiətin sirli yuxusu olaraq yozumlanması poetikdir. Onsuz da, axşamlar hər bir evə qaranlıq çökür. Şeirdə bu anlar hər hansı bir adamın başına gələn şübhəli fikirlər kimi mənalandırılır.

Keçən əsrin sonlarında vətənimizin başına gətirilən bəlalara bir şair kimi Məmməd İsmayıl da biganə qala bilməzdi. Şairlik haqqında ən tutarlı şeirlərdən birini zamanın tələbi ilə yazdı. Bu özünü inkarda əsl vətəndaşlığın təsdiqini nümayiş etdirdi:

*Bu xalq yeddi yerdən zavala gəldi,*
*Bu xalqın danışan dili olmadım.*
*Bu xalqın başına min bəla gəldi,*
*Mən ki dözüb durdum, dəli olmadım,*
*Mən şair deyiləm atam, qardaşım.* [9, s.7]

## Nəticə / *Conclusion*

İstər sovet, istərsə də müstəqillik illərində Azərbaycan ədəbiyyatının ən parlaq simalarından birinin Məmməd İsmayıl olması danılmazdır. Onun nəinki lirik şeirləri, eləcə də poemaları ümumtürk ədəbiyyatının ayrılmaz tərkib hissəsidir. Nəsr yaradıcılığında da öz dəsti-xətti olan müəllif müraciət etdiyi mövzunu ümumbəşəri meyarlarla təqdim etməyi bacarır. İkinci Dünya müharibəsi mövzusunda yazdığı "İz" romanında hadisələr birbaşa ön cəbhədə cərəyan etməsə də, müharibənin insan taleyindəki inkar olunmaz faciəsinin gerçəklikləri əsərin özəyini təşkil edir. Ümumilikdə Məmməd İsmayıl yaradıcılığı mövzu və janr fərqi olmadan bədii sözün mahiyyətinə xidmət edən yaradıcılıqdır.

## Ədəbiyyat / *References*


1. Bu da ömrün 85-i. "Tovuz Xeyriyyə Cəmiyyəti" ilə "Tovuz" qəzetinin xüsusi buraxılışı. – Bakı: "Elm və təhsil", 2024. 50 s.
2. Gülnar Səma. Sözümüz sözdür. – Bakı: Elm və təhsil, 2019, 352 s.
3. Məmməd İsmayıl. Axşamlar, səhərlər. – Bakı: Gənclik, 1972.
4. Məmməd İsmayıl. Döyüş, qələbə. – Bakı: Yazıçı, 1983.
5. Məmməd İsmayıl. Dünyaya baxıram. – Bakı: Gənclik, 1969.
6. Məmməd İsmayıl. Hələ yaşamağa dəyər. – Bakı: Gənclik, 1981.
7. Məmməd İsmayıl. Qoymayın dünyanı adiləşməyə. – Bakı: Gənclik, 1978.
8. Məmməd İsmayıl. Seçilmiş əsərləri. – Bakı: Azərnəşr. 1992.
9. Məmməd İsmayıl. Ümiddən asılan qılınclar. – Bakı: Yazıçı, 1990
10. Məmməd İsmayıl. Yoxun varlığı. – Bakı: Nurlan, 2008.

## Поэзия Мамеда Исмаила

**Гюльнар Гасымлы**
Доктор философии по филологии
Институт литературы имени Низами Гянджеви НАНА
E-mail: gulnar0486@mail.ru

**Резюме.** В статье выражено отношение к поэзии Мамеда Исмаила, обсуждается оригинальность и поэтический потенциал стихотворений поэта. Приведена информация об основных темах его поэзии и жанрах, которые он чаще всего использовал. Упоминаются несколько его известных стихотворений. Представлены примеры его любимых стихов. Проанализированы стихотворения, написанные им как в советское время, так и в годы независимости.
**Ключевые слова:** Мамед Исмаил, поэзия, лирические стихи, военная тема